ədalət.- 2022.- 29 mart.- S.3.

# ƏDALƏTLİ OLMAQ - QƏHRƏMANLIQDIR!
# YENİ TARİXİ REALLIQ QARŞISINDA

(əvvəli ötən sayımızda)

**- Azərbaycanın yaratdığı yeni tarixi gerçəkliyin problemləri və prioritetlərini görkəmli bir ziyalı - zəmanənin filosofu kimi necə görürsünüz?**

- Məlum və məşhur ifadə ilə desək, bundan sonra hakimiyyətlər köhnə qayda ilə idarə edə bilməyəcək, insanlar köhnə qaydalarla idarə olunmaq istəməyəcək. Müzəffər xalqın ictimai-tarixi rolu artacaq, özünə inamı güclənəcək, qalibiyyətdən doğan milli qürur daim yüksələcək və bu xalqı idarə edənlərin qarşısına şərtlər qoyacaq, xalq əvvəlki kimi susmayacaq. Birinci növbədə idarəetmənin bütün vəsilələrində islahatlar aparmaq lazımdır. Bunun üçün tayfa əxlaqına, yerliçiliyə son qoyulmalı, əsas meyar istedad, bacarıq və şəffaflıq olmalıdır. Ən böyük bəla - korrupsiya,rüşvətxorluq aradan qaldırılmalıdır. Hər sahədə seçkilər şəffaf keçirilməli, hakimiyyətə sərf edən adamlar yox, sözü üzə deyən, ədaləti müdafiə etməyi bacaran, haqqın tərəfində duran, əsli-kökü, məlum olan, vətəndaş qeyrətli, ləyaqətli adamlar seçilməlidir. Azərbaycanda ordu quruculuğunu gücləndirmək, onu yeni hərbi texnika ilə silahlandırmaq zərurətdir. Doğrudur həkimlərimiz koronovirusa qarşı fədakar mübarizə aparırlar fəqət, təhsil və səhiyyə sistemi bərbad vəziyyətdədir, bu sahələrdə ciddi islahatlar aparmaq lazımdır. Mənim fikrimcə orta təhsil onillik olmalı, Təhsildə ikitirəliyi - bakalavr və magistraturanı ləğv etmək, beşillikli təhsili bərpa etmək - sovet-alman təhsil sisteminə keçmək lazımdır. Son on ilin təhsil təcrübəsi göstərir ki, xarici ölkələrdən fərqli olaraq bu sistem, xüsusən magistratura təhsili özünü doğrultmur. Səhiyyə sahəsinə yeni texnologiyalar gətirilir, bu yaxşıdır. Lakin texnologiyalara arxayın olub baş işlətməyən həkimlərdən xilas olmaq lazımdır. Özəl universitetlərdə və özəl xəstəxanalarda təhsil və müalicə xərcləri Azərbaycan əhalisinin yaşayış durumuna uyğun deyil, onların xalqı terror etməyinin qarşısı alınmalıdır. Azərbaycanda ailələr sürətlə dağılır, boşanmalar hədsiz çoxalıb. Bunun səbəbləri ciddi araşdırılmalıdır, belə davam etsə fəlakətə yaxınlaşırıq.Biz türk millətiyik, türkün qüdrəti onun mənəviyyatındadır.Türk mənəviyyatının əsasında vətən əxlaqı və ailə kultu dayanır. Bunları qorumaq dövlət siyasətinin guşə daşında dayanmalıdır. Qırx dörd günlük Vətən müharibəsi sübut etdi ki, müasir Azərbaycan gəncliyi öz qəhrəman əcdadlarına layiq bir nəsil kimi formalaşıb. Gəncliyi kənar, əcnəbi təsirlərdən qorumaq, onun imkanlarının vaxtında görmək, gənclərin gücündən səmərəli istifadə etmək üçün dövlətin gənclər siyasəti olmalıdır. Bizi əhatə edən üç imperiya - üç böyük dövlətlə balanslaşdırılmış siyasət aparmalıyıq. Əlbəttə, Azərbaycanın milli və dövlət mənafeləri ön planda olması şərti ilə.

Regionları inkişafı haqqında dövlət proqramı mərhələlərlə uğurla həyata keçirilir: yeni xəstəxanalar, məktəblər, diaqnostika mərkəzləri tikilir. Yollar çəkilir və yüksək texnologiya müasir avadanlıqlarla təchiz olunur. "Asan xidmət" mərkəzlərini inqilabi kəşf adlandırmaq olar. Onlar məmur süründürməçiliyinin, xırda rüşvətin qarşısını xeyli aldı. Bələdiyyə sahəsində islahat aparmaq, ya da onları ləğv etmək lazımdır. Hazırda ölkədə icra orqanları ilə bələdiyyələr iki hakimiyyətlik yaradıblar, əhalinin problemləri həll etmir, bir-birinin üstünə atırlar. Faktiki olaraq bələdiyyələr öz missiyalarını başa vurublar - daha satmağa torpaq qalmayıb. Bələdiyyələrin dövlətçilikdə, ictimai tərəqqidə heç bir rolu yoxdur, onlar doğulmamış ölən uşağa bənzəyirlər.

**- Dinə və mənəvi dəyərlərə münasibətiniz necədir? Görkəmli bir alim və ziyalı olaraq Siz bu sahələrə hansı meyarlarla yanaşırsınız?**

- Mən bu yaxınlarda çapdan çıxmış "Orta əsrlər Azərbaycan ədəbiyyatı (bədii-fəlsəfi təkamülü)" adlı fundamental kitabımda belə yazmışam: "türklər islamı bir din kimi yox, elm kimi qəbul ediblər". Ərəblər islamı yaratdı - türklər islamı yaşatdı. Mən dini ilahi bir elm kimi qəbul edirəm, dəfələrlə yazmışam: Allahı sevirəm, dinə hörmət edirəm, fanatizmə düşmənəm. Din xadimləri xalqa Allah qorxcusu aşılayır. Mən bununla razı deyiləm. Mən Allahı sevirəm, insan qorxduğu varlığı sevə bilməz, əgər sevirsə ondan qorxa bilməz. Allah qorxusu insanda acizlik, mütilik yaradır. Bütün dinlərin, xüsusilə ən müasir din olan islamın cəmiyyətin mənəvi tarazlığının qorunmasında böyük rolu var. Lakin dinin dövlətin işlərinə qarışmasına yol vermək olmaz. Son vaxtlar ayrı-ayrı dindarlar tərəfindən bir qədər qabardılan məzhəb ayrılığı,vaxtilə bizi işğal edən imperiyaların dəyirmanına su tökür. Əsrlərlə yaranıb formalaşmış mənəvi dəyərlərimizi, daşlaşmış adət-ənənələrimizi dinlə bağlamaq düzgün deyil. İslam dinindən əvvəl böyük türk sivilizasiyası mövcud idi. Əslində ərəb-islam ehkamları Böyük Çöl mədəniyyəti ilə bağlı türk demokratizmini sıxışdırırdı. Türkçülüyə ən böyük zərbəni ərəb-islam ehkamçılığı vurdu. Dinin başlıca vəzifəsi cəmiyyətdə mənəvi tarazlığı qorumaq, insanlara ruhi sakitlik gətirmək, ziddiyyətləri sülh yolu ilə həll etmək, konfrantasiyaya yol verməməkdir. Fəqət, bəzi ortadoks müsəlmanlar din tarixi boyu məzhəb ayrılığı zəminində qarşıdurma yaratmaq, ixtişalar salmaq yolu tutmuşlar. Bununla da tarixi bir ədalətsizlik nəticəsində, işğal yolu ilə Azərbaycanı ikiyə bölmüş fars və rus imperiyalarının müstəmləkə siyasətinə xidmət etmiş olurlar.

Bütün monteist dinlər vahid substansiyanın varlığına inam üzərində qurulub. Peyğəmbərlik institutu bəşəriyyəti hissələrə bölüb idarə etmək üçün bir formadır. İslam dini səhra ərəbinin - bədəvi ərəbin mühitinin məhsulu idi. Peyğəmbərlər monteizm təbliğ etməklə məsuliyyəti İlahi qüvvənin boynuna qoyublar: qəzavü-qədər, Allahın iradəsi, taleyin qisməti və s.

Bədəvi ərəb savadsız idi. Belə mühitdə təmiz ruhu, dərin idrakı, fəhmi sayəsində Hz.Mühəmməd peyğəmbərlik qazanır, öz ruhi həyəcan və psixoloji sarsıntılarına,



vəcdlərinə ərəbləri inandıra bilir. Nə o, nə də digər səma kitablarının - Əhdi əqiq, Əhdi cədid sahibləri Allahı görməyib, onun səsini eşidib, nəfəsini duyublar. Allahın elçisi - rəsulu Mühəmməd seçilib.

Dinimizin müqəddəsliyini, təmizliyini qorumaq, onu ideologiyaya və siyasətə çevrilməsinə yol verməmək bizim və gələcək nəsillərin vəzifəsidir.

**- Yeni tarixi gerçəkliyin tələbləri baxımından müasir ədəbi prosesin vəziyyəti sizi qane edirmi? İstəyirəm bir tənqidçi kimi cavab verəsiniz: ədəbi prosesdə nə baş verir?**

- Mən bu haqda bütün yaş dövrlərində düşünmüşəm və yazmışam. Çoxlu sayda kitablarım hamıya bəllidir. Mən də mövcud ədəbi prosesin bir üzvüyəm. Bayaq adını çəkdiyim kitabıma belə bir ithaf yazmışam: "Ədəbiyyatyaradanlara, ədəbiyyatı yaşadanlara, ədəbiyyatla yaşayanlara ithaf edirəm". Ədəbi proses əsasən bu üç zümrədən ibarətdir: yazıçılardan, tənqidçilərdən və oxuculardan! Bunlar arasında qarşılıqlı hörmət, anlayışlı münasibət olmalıdır. Mən 2015-ci ildə "Ədəbiyyat qəzeti"ndə "Tənqidə meyarsızlıq sindromu" adı ilə 10 yazıdan ibarət silsilə məqalələr yazıb bir tənqidçi kimi obyektiv mövqeyimi bildirmişəm. Bu silsilə "İdrakın üfüqləri" kitabımda da işıq üzü görüb. Konkret olaraq deyim ki, müasir ədəbi proses yeni tarixi reallığın tələblərinə cavab vermir. Ondan geri qalır. Ayrı-ayrı faktları istisna etməklə deyə bilərəm ki, ədəbi prosesdə birsistemsizlik var. Ən birincisi odur ki, ədəbi prosesdə nəsil dəyişikliyi, yeniləşmə getmir. Bu gün də ədəbi prosesdə əsas yeri "60-cılar" tutur. Ona görə də ədəbi proses qocalıb, ədəbiyyata onlardan sonra gələnlər nəsil kimi formalaşa, öz estetik ideallarını, bədii-fəlsəfi konsepsiyalarını irəli sürə bilmədilər.

Ədəbi prosesə yenə də tənqidolunmazlıq sindromu (üzgörənlik) hakimdir, xüsusilə son iki ildə pandemiya dövründə ədəbi mühit lap süstləşdi, bir vahimə hissi yarandı. Halbuki tarix yeni ideyalar, yeni mövzular irtəli sürərək sürətlə irəliləyir.

**- İkinci Qarabağ müharibəsində - Vətən müharibəsindəki qələbəmizdən sonra Azərbaycan Cənubi Qafqazda yeni geosiyasi reallıq yaradıb. Siz bunu bir vətəndaş olaraq necə dəyərləndirirsiniz?**

- Vətən müharibəsindəki qələbəmiz cahanşümul bir hadisədir. Qəhrəman xalqımız - gənclərimiz, ordumuz. Dövlətimiz Dəmir yumruq kimi birləşərək, bütün dünyanı heyrətdə qoyan tarixi Zəfər çaldı. Biz yeni tarix yaratdıq. Bu barədə hələ çox yazılacaq. Azərbaycanın milli yazıçısı və ilk diplomatlardan biri Y.V.Çəmənzəminli Qarabağ (və Azərbaycan!) tarixinə dair bir roman yazıb, adını "İki od arasında" qoymuşdu. Fəqət, sovet dönəmində bu əsərin həmin adla çapına icazə verilmədi. Müəllimim, tənqidçi - professor Əkbər Ağayev mənə danışdı ki, bu əsəri "Qan içində" adı ilə nəşr etdirə bildim.

"İki od arasında" tarixi bir ədalətsizlik nəticəsində ikiyə bölünmüş Azərbaycan geo-siyasi durumunu tarixən düzgün əks etdirir. Ruslar 914-cü ildən başlayaraq Azərbaycana heç vaxt işğalçı adı ilə gəlməyiblər, 500 gəminin hər birində 100 nəfər olmaqla "ticarət" məqsədi ilə indi isə "sülhməramlı" adı ilə gəliblər. Və 1000 il sonra İranla bir araya gəlib "Kürəkçay" (1805), "Gülüstan" (1813) və nəhayət "Türkmənçay" (1828) işğalçı razılaşmasında qədim və ulu bir xalqın gözəl ölkəsini onun heç bir razılığı və iştirakı olmadan Arazadlanan təbii bir qılıncla iki yerə bölüblər. Beləliklə də biz bu gün də özümüzü yandıran "İki od" arasında qalmışıq.

**- Siz gənclik illərində Akademiyada fəaliyyətə başlamış, burada elmlər namizədi və ən gənc elmlər doktoru olmusunuz. Yeni tarixi gerçəklik baxımından Akademiya elminin vəziyyəti sizi qane edirmi?**

- Mən 30 yaşımda SSRİ Yazıçılar İttifaqının üzvü, 24 yaşımda Elmlər Akademiyasının əməkdaşı olmağımla fəxr etmişəm, qürur duymuşam. O zaman da akademiyanın problemləri var idi. Lakin Azərbaycan elminin inkişafında akademiyanın rolu böyükdür. Akademiya işçiləri bu günkü tarixi reallıqla - amansız kapitalizmlə heç cür uyğun gəlməyən cüzi maaşla işləyən fədakar kamikadzelərdir. Biz elmimizin dünya miqyasına çıxmasını istəyiriksə, yeni texnologiyalarla bərabər, akademiya əməkdaşlarının əməkhaqlarını əhəmiyyətli dərəcədə artırmalıyıq. Hər yerdə Avropa Şurasının tələblərini meyar götürürük, amma nədənsə bu elm məbədində çalışanların məvacibini Avropa ilə müqayisə etməyə qorxuruq, çünki bu müqayisədə dəhşətli mənzərə alınar. Bu gün Prezidentin apardığı düzgün islahatlar sayəsində nazirliklər və icra orqanlarında cavanlaşma, fəqət Elmlər Akademiyasında qocalaşma gedir, uğursuz məmurlar cəza batalyonu kimi bura göndərilir. Buna son qoyulmalı, AMEA da iş əmsalı yetərincə olmayan ölü canlar yeni kadrlarla əvəz olunmalı, bunun üçün ilk növbədə AMEA-ya müxbir üzvləri, akademiklər seçilərkən məmur təyinatı yox, obyektiv seçkilər keçirilməlidir.

**- Siz təxminən 20 il Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində işləmisiniz. 16 il burada ən böyük kafedranın "Ədəbiyyat və dillər" kafedrasının cavan müdiri olmusunuz. Yeni proqram və dərsliklər yaratmış, layihələr, tədbirlər keçirmisiniz. Yeni tarixi gerçəklik baxımından mədəniyyətimizin bu günkü vəziyyəti sizi qane edirmi?**

- Söhbət məni qane etməkdən getmir. Azərbaycan mədəniyyəti bütün dövrlərdə milli mənəviyyatı qoruyan və əks etdirən unikal bir sahə olub. Mədəniyyət xadimləri qeyri-adi insanlardır: aktyorlar, rejissorlar, kino xadimləri, ifaçılar - ən yaxşıları nadir adamlardır, onlara böyük ehtiramım var, mən ADMİU də işlədiyim 20 ili ömrümün ən xoşbəxt illəri hesab edirəm. Görkəmli mədəniyyət xadimləri ilə ünsiyyətdə olmaq məni bir şəxsiyyət kimi cilalayıb, mənəvi ucalığa qaldırıb.

Lakin bu gün sərhədlər açılandan sonra incəsənətimiz Şoubazarına çevrilib, layiq olmadığı halda Əməkdar artist, Xalq artisti olanlar, özlərini "Diva", "Qızıl şlyager", "Qızıl səs", "Bal səs" və s. adlandıranlar musiqimizi ucuzlaşdırıblar. Teatra yeni dramaturgiya gəlmir, repertuar qıtlığı var. Aktyorlar maddi çətinlik ucbatından ucuz,səviyyəsiz tele tamaşalara, bayağı seriallara qaçır. Nəticədə milli teatr və kino sənəti, musiqimiz öz simasını itirmək təhlükəsi ilə üzləşib.

(ardı növbəti sayımızda)

**Yunus Mirzə**